**UOT: 719.**

**Aslan Xəlilov**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru**
**e-mail: aslan_ashiq@mail.ru**

# QARABAĞIN ƏSİRLİKDƏN AZAD EDİLMİŞ MEMORİAL-XATİRƏ ABİDƏLƏRİ

**Xülasə:** Məqalədə Qarabağın əsirlikdən azad edilmiş memorial-xatirə abidələrindən bəhs edilir. Qeyd edilir ki, Qarabağ ərazisində XIII-XIV əsrlərdə inşa edilmiş çoxsaylı memorial-xatirə tikililəri vardır. Onların hər biri özündə Naxçıvan, Arran və Şirvan-Abşeron memarlıq məktəblərinin qarşılıqlı təsirini əks etdirir. Bu mənada Füzulidə Şeyx Babı (Şıxbabalı) (1272), Əhmədalılar (XIII əsr), Mirəli (XIV əsr), "Sofi Həsən" (XIX əsr), Laçında Məlik Əjdər (XIII əsr), Zəngilanda Məmmədbəyli (1305), Ağdamda Xaçındərbətli (1314), Pənah Əli və İbrahim Xəlil xanın məqbərələri (XVIII-XIX əsrlər), Qubadlıda Gürcülü (XVIII əsr), Şuşada Vaqif türbəsi (XX əsr) və b. türbələri göstərmək olar.

**Açar sözlər**: Qarabağ, memarlıq, əsirlik, abidə, memorial-xatirə.

Qarabağda mövcud olan memarlıq abidələri tipologiyasına görə olduqca fərqli və zəngindir. Belə ki, bu ərazidə dini, memorial-xatirə, mülki-mühəndis, müdafiə, eləcə də inzibati tikililər mövcuddur ki, hər biri ayrı-ayrılıqda Azərbaycan memarlıq məktəblərinin bədii-texnoloji xüsusiyyətləri özündə ehtiva edən bir memarlıq inciləridir. Onların dünya miqyasında tanınmasını şərtləndirən başlıca amillərdən biri ölkəmiz üçün böyük strateji əhəmiyyəti olan, tarixi-coğrafi ərazidə – Qarabağda yerləşməsi və memarlıq həllinin unikallığıdır.

Qeyd edək ki, Qarabağın memarlıq abidələri bu günə qədər bizə faciə, kədər, həsrət anlayışlarını xatırladırdısa, bu gün Qarabağ məfhumu bizim zəfər, sevinc, qürur və fəxarət hissimizin təcəssümüdür. Təbii ki, bunun başlıca səbəbi şanlı tariximizə qızıl hərflərlə yazılan və xalqımızın qürur mənbəyinə çevrilən 44 günlük II Qarabağ müharibəsində əldə etdiyimiz qalibiyyətdir. Rəşadətli ordumuzun şanlı qələbəsi nəticəsində Qarabağın əsirlikdə olan zəngin memarlıq irsi azad olunmuş və əksər abidələr qısa zamanda bərpa edilərək əvvəlki görkəminə qaytarılmışdır.

Qarabağın əsirlikdən azad edilmiş zəngin milli-mədəni irsini özündə əks etdirən memarlıq abidələri arasında memorial-xatirə abidələri xüsusilə seçilir. Onların hər biri özündə Naxçıvan, Arran və Şirvan-Abşeron memarlıq məktəblərinin qarşılıqlı təsirini əks etdirir. Bu mənada Füzulidə Şeyx Babı (Şıxbabalı) (1272), Əhmədalılar (XIII əsr), Mirəli (XIV əsr), "Sofi Həsən" (XIX əsr), Laçında Məlik Əjdər (XIII əsr), Zəngilanda Məmmədbəyli (1305), Ağdamda Xaçındərbətli (1314), Pənah Əli və İbrahim Xəlil xanın məqbərələri (XVIII-XIX əsrlər), Qubadlıda Gürcülü (XVIII əsr), Şuşada Vaqif türbəsi (XX əsr) və b. türbələri göstərmək olar.

Füzuli rayonunun Babı kəndində yerləşən türbə xalq arasında Şıxbabalı (Şeyx Babı) türbəsi ilə məşhurdur. 1272-ci ildə inşa edilən, yuxarısı çatma günbəzlə örtülmüş səkkizbucaqlı türbənin, xüsusilə günbəzinin olduqca maraqlı memarlıq quruluşu vardır. Ümumiyyətlə, Azərbaycan türbələrində günbəzlər iki qat olduğu halda, burada günbəz bir qatdır və özü də xarici və daxili daşlardan ibarət olmayıb, ancaq bir cərgə daşdan düzülmüşdür. Günbəzin belə sadə konstruksiyası onun yüngüllüyünü təmin etmiş, atmosferin və küləyin təsirinə qarşı müqavimətini azaltmışdır. Bunun nəticəsində tədricən daşlar arasında boşluqlar əmələ gəlmişdir.

Türbənin xarici səthlərinə, bölgülərinə diqqət edildikdə, onların Naxçıvandakı Möminə xatun türbəsinin səthlərinin, bölgülərinin sadələşmiş bir forması olduğu görünür. Şeyx Babı türbəsinə kərpic tikintilərinin də təsiri var. Belə ki, divarın birində daş bölgüsü kərpic binalarda təsadüf edilən şəkildə düzülmüşdür.

Füzuli rayonunda yerləşən digər bir memorial-xatirə abidəsi Əhmədalılar (Arğalı) türbəsidir. Memarlıq həllinə görə bu türbə Babı kəndindəki türbəyə çox oxşayır. Lakin formaca oxşar olan bu abidələr bəzi xüsusiyyətlərinə görə fərqlənir. Bu türbənin yerüstü hissəsinin daxilində heç bir quruluş yoxdur, türbənin günbəzi iki qat daşdandır. Babı türbəsindən fərqli olaraq, burada türbəyə giriş yolu portal şəklində həll edilmiş və portalın kənarlarında ornament işlədilmişdir. Sonradan dağılmış türbə yenidən bərpa edilmişdir. Memarlıq abidəsi üzərində olan kitabə zaman ötdükcə dağılmış və bu səbəbdən onun inşaat tarixi məlum deyildir. Lakin üslub xüsusiyyətlərinə, daha doğrusu, Babı türbəsi ilə oxşarlığına əsasən, Əhmədalılar türbəsinin də XIII əsrin axırlarında tikildiyi ehtimal edilir.

Yuxarıda qeyd etdiyimiz türbələrlə yanaşı Füzuli rayonunda yerləşən türbələrdən biri də Mirəli türbəsidir. Aşağı Veysəlli kəndində – Mil düzünün qur-

taracağında iti günbəziylə göyə dikilən bu nadir və sirli memorial-xatirə tipli memarlıq abidəsi XIV əsrə aiddir. Memarlıq formasına və günbəzinə görə orta əsr memarlığının təkrarolunmaz nümunəsi zaman keçdikcə müqəddəsləşdirilmiş, böyük nüfuza malik ziyarətgaha çevrilmişdi.

Kimə məxsus olması və hansı memar tərəfindən ucaldılması dəqiq müəyyən edilməsə də, bu qədim memarlıq nümunəsi Azərbaycanda yeganə və elmi cəhətdən də əhəmiyyətlidir. Türbə üç pilləli kürsü üzərində ucaldılan silindrik formalı və onu tamamlayan konus şəkilli hündür günbəzdən ibarətdir. Bütünlüklə yonulmuş ağ daşdan tikilən Mirəli türbəsi qədim köç yolu üzərində yerləşdiyindən, əsrlər boyu buradan böyük sürüləriylə yaylaqlara və yaylaqlardan düzlərə köç edənlər onun divarlarına çöl tərəfdən əl çatana kimi müxtəlif işarələr və rəsmlər həkk ediblər. Bunların özləri də tarixi nöqteyi-nəzərdən çox əhəmiyyətlidir.

Qarabağın əsirlikdən azad edilmiş memorial-xatirə abidələrindən biri də son dərəcə maraqlı memarlıq quruluşuna malik olan Laçın rayonunun Cicimli kəndindəki Məlikəjdər adı ilə tanınan türbədir. Bu türbənin əsas fərqi onun məhz həcm quruluşundadır. Planda səkkizbucaqlı quruluşda olsa da, Cicimli türbəsi xaricdən həndəsi bir həcm kimi deyil, tamamilə başqa bir plastik şəkildə qavranır. Çünki türbənin divarları şaquli xətlərlə həll edilməmiş, abidənin tilləri əyri xətlə işlənmiş, türbənin silueti yumşaq cizgilərlə çərçivələnmişdir. Cicimli türbəsinin ümumi şəkli parabolanı xatırladır. Bu parabolanın səthləri arasındakı tillər oyma çıxıntılar ilə işlənmişdir; nəticədə abidənin ümumi görünüşü köçəri, türk dilli xalqlar arasında geniş yayılmış yurd quruluşunu xatırladır.

Cicimli türbəsinin maraqlı bir xüsusiyyəti də onun giriş qapısından yuxarı və giriş qapısının sağ və sol tərəflərində yonulmuş daş oymalardır. Bu daş oymalarının hər üç halda öküzü təsvir etdiyi aydınlaşdırılmışdır.

Cicimli abidəsinin üzərində kitabə olmadığından, onun nə vaxt inşa edildiyini dəqiq surətdə demək olduqca çətindir. Ancaq Cicimli abidəsini ilk dəfə görmüş və nəşr etmiş İ.P.Şeblikin bu binanın Səlcuqlar dövrünə aid olduğunu qeyd edir, bu da onun tarixini, təxminən XII əsrə və yaxud XIII əsrin əvvəllərinə aparır.

Zəngilan rayonunun Məmmədbəyli kəndində yerləşən Məmmədbəyli türbəsi kəndin ən hündür yerində, yaşıllıqlar arasında yerləşir. Abidə haqqında ilkin məlumatı XX əsrin 40-cı illərində rus tarixçisi İ.P.Şeblikin vermişdir. O, Araz və

Həkəri çaylarının hövzəsindəki abidələrdən danışarkən, Füzuli rayonundakı Mir Əli, Qubadlı rayonundakı Dəmirçilər kəndi yaxınlığındakı türbəni və başqa abidələri təsvir etmişdir. Lakin Məmmədbəyli türbəsi memarlıq quruluşu cəhətdən həmin türbələrə bənzəmədiyi üçün onun təsvirini olduğu kimi verməmişdi.

Türbə dövrümüzədək salamat gəlib çatan abidələrdəndir. Günbəzin yuxarı hissəsi azca dağılmışdır. Tikili piramidal günbəzlərlə örtülmüş səkkizguşəli prizmadan ibarətdir. Abidənin inşasında əsas tikinti materialı kimi çay daşından istifadə edilmişdir. Kərpic tikintilərdə olduğu kimi bu türbənin divarı yükdaşıyıcı kütləyə və üzlüyə bölünmür. Türbə, daxildən və xaricdən üzlük daşlarla hörülmüşdür. Onların arası boş saxlanılmış, sonra məhlulla doldurulmuşdur. Bu cür tikintiyə Azərbaycanın başqa türbələrində də rast gəlinir. Türbənin üst günbəzini tikərkən də bu texnikadan istifadə olunmuşdur. Burada da günbəz iki qatdır. Daxili günbəz sferik, xarici günbəz isə piramidal formadadır. Onların da arası məhlulla doldurulmuşdur.

1975-ci ildə ilk dəfə yeraltı sahə təmizlənmiş və türbənin sərdabəsi üzə çıxarılmışdır. Sərdabəyə giriş qərb tərəfdəndir. Sərdabənin döşəməsi yaxşı cilalanmış daşlarla hörülmüşdür. Orta əsrlərdə belə türbələr, adətən, feodal əyanların, maddi durumu yaxşı olan və eyni zamanda tanınmış şəxslərin qəbri üstündə ucaldılarmış.

Türbənin maraqlı və orijinal kitabəsi vardır. Nəsx xətti ilə yazılmış altı sətirlik ərəbdilli kitabə oyma üsulunda yazılmışdır. Dörd sətirdə Qurani-Kərimdən ayələr verilir. İki sətirdə türbənin Məhəmməd əl-Hacın oğlu Yəhyanın şərəfinə hicri tarixi ilə 704-cü ildə (miladi 1305-ci il) tikildiyi göstərilmişdir. Binanın memarı və bənnası XIV əsrdə İpək yolu üzərindəki bir çox abidələri yaratmış Əli Məcdəddindir.

Qarabağın memorial-xatirə abidələrindən biri də Ağdam rayonunun Xaçındərbətli kəndində yerləşən türbədir. Bu abidə nisbətən alçaq bir kürsülük üzərində yüksələn səkkizbucaqlı gövdədən ibarət olub, səkkizbucaqlı piramidaşəkilli günbəzlə örtülüdür. Xaçındərbətli türbəsinin əsas məziyyəti onun həcmində deyil, bu ənənəvi quruluşun özünəməxsus bir şəkildə həll edilməsidir. Türbədə yerləşən yeraltı hissənin varlığı onun qülləvarı türbələr qrupuna daxil edilməsinə əsas verən başlıca bir əlamətdir. Abidənin istər daxili səthlərinin, istər daxilindəki günbəzin, istərsə də xaricindəki səthlərin işlənilməsi binaya təkrarolunmaz bir fərdi xüsusiyyət verir.

Xaçındərbətli abidəsinin giriş qapısı üzərindəki kitabədən, onun 1314-cü ildə ustad Şahbənzər tərəfindən Musa oğlu Kutlunun qəbri üstündə tikildiyi göstərilir. Xaçındərbətli abidəsinin ən zəngin hissəsini giriş səthinin memarlığı və onun daxili günbəzinin stalaktitli quruluşu təşkil edir. Türbənin giriş səthində və daxilində olan heyvan təsvirləri də son dərəcə diqqəti cəlb edir. Xaçındərbətli abidəsinin daxili stalaktit biçimli günbəzi Şirvan memarlığının daşdan oyma stalaktit kompozisiyalarını xatırladır.

Nəticə etibarilə qeyd edək ki, Qarabağın əsirlikdən azad edilmiş memorial-xatirə abidələri tarixi məziyyətinə görə bu gün də öz aktuallığını qorumaqda və Qarabağın zəngin memarlıq irsinin daha da zənginləşməsini şərtləndirməkdədir.

**Ədəbiyyat siyahısı:**

1. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı, 2001.
2. Əliyev Z, Xəlilov A. Azərbaycan incəsənəti. Ensiklopediya. I-III cildlər. Bakı, 2010-2011.
3. Əmənzadə R. Azərbaycan memarlıq abidələrinin tipologiyası. XI-XVII əsrlər. Bakı, 2016.
4. Qarabağlı R. Qarabağın memarlıq irsi. Bakı, “Bilgi” nəşriyyatı, 2021.
5. Salamzadə Ə. V. Azərbaycanın memarlıq abidələri. Bakı, 1958.

**Аслан Халилов**

## МЕМОРИАЛЬНЫЕ ПАМЯТНИКИ, ОСВОБОЖДЁННОГО ИЗ ПЛЕНА КАРАБАХА

**Резюме:** В статье исследуются освобожденные мемориалы Карабаха. Отмечается, что на территории Карабаха имеются многочисленные мемориальные сооружения, построенные в XIII-XIV веках. Каждая из них отражает взаимодействие архитектурных школ Нахчывана, Аррана и Ширван-Апшерона. Таким образом, можно отметить Шейх Баби (Шихбабали) в Физули (1272 г.), Ахмадалилар (XIII век), Мирали (XIV век), «Софи Гасан» (XIX век), Малик Аждар в Лачине (XIII век), Мамедбейли в Зангилане (1305 г.), Хачындарбатли в Агдаме (1314 г.), мавзолеи Панах Али и Ибрагим Халил хана (XVIII-XIX вв.), Грузинский в Губадлы (XVIII в.), гробница Вагифа в Шуше (XX в.) и другие.

**Ключевые слова**: Карабах, архитектура, плен, памятник, мемориал.

**Aslan Khalilov**

## MEMORIAL MONUMENTS OF KARABAKH LIBERATED FROM CAPTIVITY

**Summary:** The article deals with the liberated memorials of Karabakh. It is noted that there are numerous memorial buildings built in the XIII-XIV centuries in the territory of Karabakh. Each of them reflects the interaction of Nakhchivan, Arran and Shirvan-Absheron architectural schools. In this sense, Sheikh Babi (Shikhbabaly) in Fuzuli (1272), Ahmadalilar (XIII century), Mirali (XIV century), “Sophie Hasan” (XIX century), Malik Ajdar in Lachin (XIII century), Mammadbeyli in Zangilan (1305), Khachindarbatli in Aghdam (1314), mausoleums of Panah Ali and Ibrahim Khalil khan (XVIII-XIX centuries), Gurjulu in Gubadly (XVIII century), Vagif mausoleum in Shusha (XX century) and other mausoleums can be shown.

**Key words:** Karabakh, architecture, captivity, monument, memorial.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 18. 01. 2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Sevil Kərimova**